# Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik tərbiyəsində ənənəvi xalq mədəniyyətinin rolu

**Sədaqət Əliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aliyevasedaqet.29@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. S.Ə. Cəmilzadə,
ped.ü.f.d., dos. Z.Ə. Zeynalova

**Açar sözlər:** vətənpərvərlik, mənəviyyat, şəxsiyyət, xalq incəsənəti, folklor
**Ключевые слова:** патриотизм, мораль, личность, народное творчество, фольклор
**Key words:** patriotism, morals, personality, folk art, folklore

Tarixi məkan insanların mənəvi bənzərliyinin formalaşmasına gətirib çıxarır. Mənəvi həyatdakı oxşarlıq da öz növbəsində ünsiyyətə və qarşılıqlı fəaliyyətə imkan verir, yaradıcı gücü və nailiyyətləri əmələ gətirir, özünəməxsus mədəniyyətin ötürülməsinə səbəb olur və qarşılıqlı kömək edir.

Xalq mədəniyyəti-bu ənənələr, mərasimlər, adətlər, inanclar, dünyagörüşü, əxlaqi və estetik dəyərlər, milləti təyin edən sima, onun məişəti, unikallığı, sosial və mənəvi xüsusiyyətləridir. Xalqın keçmişi onun bünövrəsidir, bu gün isə keçmiş mədəniyyətin bizim vasitəmizlə gələcəyə ötürülməsi və inkişafıdır. Mədəniyyət ənənələrinə sadəcə bilik mənbəyi kimi deyil, müdriklik və xalqın tarixi mənbəyi kimi də müraciət etmək lazımdır.

Xalq ənənələri xalqın ruhunu və daxili dünyasını özündə tam əks etdirir. Bu canlı xalq yaddaşı, keçdiyi yolun təcəssümü və təkrarolunmaz mənəvi təcrübəsidir. Bir Şərq kəlamında deyildiyi kimi, biz ata və babalarımızdan miras olaraq elə bir şey almamışıq ki, o sınaqdan keçirilməmiş olsun. Xalq mədəniyyəti insanı mənəvi kasadlıqdan qoruyur, ona zaman və nəsillər haqqındakı əlaqəni hiss etdirir və çətin vaxtlarda lazımi dəstək və həyati dayaq verir. Əcdadının tarixini və mədəniyyətini bilməyən xalq mənəvi cəhətdən kasıbdır və məhvə məhkumdur. Bu həqiqət hər dövrdə olduğu kimi bu dövr üçün də aktual səslənir. Bu gün də ənənəvi xalq mədəniyyətinin əsaslarına, minillik mədəniyyət təcrübəsinə, milli xarakterin gənc nəslə ötürülməsinə kəskin ehtiyac vardır.

Vətəndaşlıq, vətənpərvərlik vətənə məhəbbət hissidir. Vətən anlayışına həyatın bütün tərəfləri-ərazi, iqlim, təbiət, ictimai həyatın təşkili, dilin, məişətin xüsusiyyətləri daxildir, lakin onunla məhdudlaşmır. Hər bir vətənpərvər gənc vətənini sevməli, xalqının tarixi səhvlərindən nəticə çıxarmalı, onun xarakter və mədəniyyətini öyrənməlidir. Vətənpərvərlik hissi insanın mənəviyyatı və onun dərinliyindən asılıdır. Çünki bu hissin əsasında mənəvi özünüdərketmə tərbiyə olunur.

Ulu öndər Heydər Əliyev deyirdi: "Mənəviyyatın yüksəkliyi də insanın millət kimi mənliyindədir, məziyyətindədir, vətənpərvərliyindədir. Ona görə də gərək insan öz tarixini, millətinin kökünü, öz millətinin keçmişdə yaratdığı abidələri bilsin. Ona görə bilsin ki, öz milləti, xalqı ilə daim fəxr etsin, vətənpərvər olsun, xalqına, millətinə, torpağına, dövlətinə sədaqətli olsun".

Erkən yaşlardan uşaqlara vətənə məhəbbət hissini aşılamaq zəruridir və bu hissin oyanması sözdə deyil əməldə olmalıdır. Vətənə məhəbbət dərin hissdir və insanın arzusunda,

əməyə tələbatında, vətənin və onun sərvətlərinin qorunmasında ifadə olunur.

Tərbiyənin əsas məqsədi cəmiyyət üçün əsl vətəndaşlar tərbiyə etməkdir. Vətəndaşlıq əsl mənada insanın vətəninə, xalqına məhəbbətdə, həyata şüurlu baxışında, əmək işlərində fəal iştirak etməkdə, ünsiyyət və davranışında yüksək mədəniyyət nümayiş etdirmək bacarığında özünü büruzə verir. Vətəndaşlıq şüurunun yüksək olması tərbiyənin düzgün qurulmasından çox asılıdır. Tərbiyə prosesində böyüməkdə olan nəsildə vətəndaşlıq duyğuları yaratmaq, vətəndaş olduğunu onlara dərk etdirmək vacibdir.

Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissini inkişaf etdirmək üçün müxtəlif vasitələrdən istifadə etmək olar. Xalq mədəniyyəti ilə tanışlıq bu vasitələr arasında ən əhəmiyyətli yer tutur. Vətənpərvərlik tərbiyəsi uşaqların yaşını nəzərə almaqla mənimsəmə imkanlarını formalaşdıran kompleks məqsəd funksiyasını özündə birləşdirir. Vətəndaşlıq tərbiyəsi funksiyaları uşaqların yaş imkanlarını və xüsusiyyətlərini nəzərə almaqla tam pedaqoji prosesdə həyata keçirilir. Buraya məşğələdə, məşğələdənkənar və kütləvi informasiya vasitələri ilə təbliğ olunan vətəndaş tərbiyəsi daxildir.

Məktəbəqədər yaş dövründə uşaqlarda vətənpərvərlik hissinin formalaşmasında vacib pedaqoji təsir vasitələrindən biri ətraf aləmin mütəşəkkil müşahidəsidir. Uşaqlar insanların necə işlədiyini, əmək münasibətlərinin necə formalaşdığını, yaxşı işin başqaları tərəfindən necə qiymətləndirildiyini, yaxşı çalışanlara hörmətin necə ifadə olunduğunu görürlər. Lakin təkcə müşahidə üsulu ilə iş aparmaq uşaqların bilik dairəsini və marağını məhdudlaşdıra bilər. Əsas məqsəd isə doğma xalqın özünəməxsus xüsusiyyətləri ilə tanışlıq, uşaqların qəlbində xalq həyatının bütün tərəflərini göstərməklə vətənə məhəbbət və xalqın maddi və mənəvi mədəniyyətinə maraq oyatmaqdır. Vətənpərvərlik tərbiyəsinin əsas şərtlərindən biri uşaqların özlərinin əmək fəaliyyətinə cəlb edilməsidir.Bu məsələni sənət əsərləri və xalq musiqisi, illustrasiyalar və rəsmlər vasitəsi ilə həll etmək olar. Onda uşaqlar üçün xalqın mədəniyyətinə pəncərə açılacaq, lazımi ümumiləşdirmələr ediləcək, onlar üçün o hissləri anlamaq daha asan olacaqdır.

Vətənpərvərlik tərbiyəsi bir başa fiziki tərbiyə ilə bağlıdır. Vətənin gələcək keşikçilərinə çəldlik və çeviklik kimi keyfiyyətlərin aşılanması zəruridir. Xalq oyunları vətənpərvərlik tərbiyəsi məsələlərini həll etməyə kömək edir. Uşaqların əmək prosesini müşahidə etməsindən sonra xoşladıqları bədii yaradıcılığın təsiri ilə maraqlı oyun yarana bilər ki, uşaq burada qəbul etdiyi biliklərdən və möhkəmlənmiş həyat təcrübəsindən istifadə edə bilər. Böyüklərin vəzifəsi bu işdə onlara doğru istiqamət verməkdir.

Məktəbəqədər müəssisələrdə pedaqoji prosesdə uşaqların xalq mədəni irsinə cəlb olunması aktiv formada aparılmalıdır. Uşağın əxlaqi-emosional inkişafı onun əxlaqi tərəqqisinin vacib şərtidir. Dərin və aydın təcrübə mənəvi anlayışları, onun əsasında yaranan duyğuları sabit və dolğun edir. Əxlaqi dəyərləri anlamaq təkcə onların ağılına və hisslərinə təsir etmir, həm də onların davranışları üçün tənzimləyici rol oynayır.

Əxlaqi tərbiyə əsasən sözlü formada həyata keçirilir. Erkən yaşlardan mənəvi ünsiyyət vasitəsi ilə davranışın fərdi-şəxsi əsası formalaşmalıdır. Bu halda ümumbəşəri dəyərlər möhkəm qurulur, cəmiyyətə, təbiətə, ümümbəşəri mədəniyyətin qlobal problemlərinə geniş baxış formalaşır.

Xalq mədəniyyətinin əsas əxlaqi kateqoriyaları və əxlaqi anlayışlarının tərbiyəvi imkanları böyükdür. İlk növbədə burada folklor materialları, onların əxlaqi mahiyyəti böyük rol oynayır. Bu dövrdə uşaqlar hələ vətənpərvərlik və vətənə sevgi anlayışlarını tam qavramasalar da, xalq mədəniyyəti bunun üçün zəmin hazırlayır. Belə əlverişli zəmin xalq yaradıcılığının bütün növlərində mövcuddur. Xalq incəsənəti uşaq dünyasına dərin təsir edir, əxlaqi, estetik, idraki

dəyərləri inkişaf etdirən təsirə malikdir, özündə çoxlu nəsillərin təcrübəsini təcəssüm etdirir, maddi mədəniyyətin bir hissəsi kimi götürülür.

Xalq yaradıcılığı ilə tanışlıq uşaqlarda vətən və onun mədəniyyəti haqqında ilk fikir yaradır, vətənpərvərlik hissi aşılayır. Uşaqların estetik tərbiyəsində əsas rolu xalq dekorativ-tətbiqi incəsənət oynayır. Ona görə də uşaq bağçasında pedaqoji prosesdə bunlardan istifadə etmək lazımdır. Xalq incəsənəti xarakter cizgilərini: ünsiyyət, dilin mükəmməlliyi, ətraf həyatla əlaqə, ənənəlik və s. inkişaf etdirir. Xalq incəsənəti uşaqda öz yurdunun tarixinə, sənətlərinə maraq yaradır. Uşaqlar anlayır və dərk edir ki, onlar mədəniyyətin bir hissəsidir və bu mədəniyyətin qorunmasını və inkişafını dəstəkləməlidirlər.

Uşaqlar milli mədəniyyətin bütün növləri ilə - memarlıqdan başlamış, nağıl, musiqi, teatr, hətta ornamentlərə qədər tanış olmalıdır. Məhz belə bir yanaşma tərzi ilə uşağın şəxsiyyətinin mədəni inkişafı əsasında vətənpərvərlik hissi və vətənə məhəbbət tərbiyə olunur.

Bu vasitə ilə uşaqların idraki, əmək, emosional-əxlaqi və estetik inkişafına, bunun fonunda isə uşaq şəxsiyyətinin formalaşması üçün lazımi şərait yaranır. Tərbiyəçilər uşaqlarda mədəni-tarixi biliklər, xalq sənətləri, musiqi incəsənəti, təsviri incəsənət, bir sözlə xalq mədəni irsi vasitəsilə xeyirxah fikir, öz xalqına məhəbbət hissi tərbiyə edə bilərlər. Ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqların tərbiyəsində etnomədəni komponentlərdən istifadə uşaqda nitq aktivliyini inkişaf etdirir, tərbiyə-təlim prosesinin effektivliyini yüksəldir.

**Məqalənin aktuallığı.** Hər bir dövrdə olduğu kimi bu gün də uşaqların vətənpərvərlik ruhunda böyüməsi vacibdir. Ona görə də məktəbəqədər yaşdan başlayaraq uşaqların vətənpərvərlik tərbiyəsində başqa vasitələrlə yanaşı zəngin xalq mədəniyyətindən də istifadə etmək vacibdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, uşaqların vətənpərvərlik tərbiyəsində müxtəlif vasitələrlə yanaşı xalq mədəniyyətindən də istifadə edilməsinin əhəmiyyəti göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Xalq mədəniyyəti nümunələri ilə uşaqların məktəbəqədər müəssisələrdə məşğələdə, məşğələdənkənar vaxtlarda və ailələrdə müntəzəm tanış edilməsi onların vətənpərvərlik tərbiyəsinə mühüm təsir göstərəcəkdir.

## Ədəbiyyat

1. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1992.
2. Əliyeva S. Xalq tərbiyəsinin amilləri və vasitələri. Bakı, 2016.
3. Mursaqulova R., Cəmilzadə S. Uşaqlarda əxlaqi keyfiyyətlər tərbiyəsi. Bakı, 2000.

**С. Алиева**

## Роль традиционной народной культуры в патриотическом воспитании детей дошкольного возраста

## Резюме

В статье описано о важности привлечения детей дошкольного возраста к культурно-народному наследию, во время воспитания патриотизма.

**S. Aliyeva**

## Role of traditional folk art in patriotic education of children of preschool age

## Summary

In the sketch it is described about importance of involvement of children of preschool age to cultural national heritage, during fostering patriotism.

**Redaksiyaya daxil olub:** 11.10.2018